

ƏBÜLFƏZ ÜLVİ

18 iyun 2016
www.kaspi.az

## ÇIXAR

Sevənin başında sevgi tacdı, tac,
Qəm versən, gözünün suyundan çıxar.
Ürək qapısını ehtiyatla aç,
Başqa cür açarsan, yayından çıxar.

Öldürsən ruh çıxar, canda gözləməz,
Can mehri can verər, qanda gözləməz,
Üz versən həsrətə, an da gözləməz,
Öcünü vüsalın payından çıxar.

Sel gəlsə, yol tapıb, çaydan çıxarsan,
Vaya da güc gəlib, vaydan çıxarsan,
Bir an məhəbbəti saydan çıxarsan,
İnsan da, insanlıq sayından çıxar.

Başına dolanır bu ərzin zaman,
Hazırda saxlayır tərəzin zaman,
Nədə əyrin olsan əvəzin zaman,
Səndən çıxmasa da, soyundan çıxar.

Ömrümü azaltsan etmərəm küsü,
Dəyişməz Ülvinin mərd görüntüsü,
Qəlbin oyunudur, qəlb döyüntüsü,
Bir eşqin azaltsan, oyundan çıxar.

## OLUBDUR

Nə olub, mənimlə niyə əymisən?
Bununla, de nəyin rahat olubdur?
Könlümün könlünə elə dəymisən,
Heyrətdən divarı çat-çat olubdur.

Tamahın axtarır yoxsa zər izi,
Gəzir arxamızca şərin, şər izi,
Necə günə qoyub gör həsrət bizi,
Vüsal anlarımız bayat olubdur.

Sanma etdiklərin xoşagəlimdir,
Mənim məhəbbətim şöhrət gölümdür,
A canım, a gözüm, ölüm, ölümdür,
Onun da əzəli həyat olubdur.

Sən haqsız dinəndə, Ülvi haqq deyib,
Yediyi çörəyi, hər vaxt şax yeyib,
Kim, kimin xətrinə nahaqdan dəyib,
Tanrıdan cavabı yüz qat olubdur.

## ELƏ İNANMIŞAM

Dönmüsən dünyanın ən göyçəyinə,
Sözün də qəlb adlı, əzan kimidir.
Bənizin bənzəyir yaz çiçəyinə,
Gülüşün namaza azan kimidir.

Vallah keçməmişəm halal qanımdan,
Sən istə, büsbütün qanımı verim.
Anımı ayırma vüsal anından,
Mən anın yerinə canımı verim.

Ruzigar kaş elə tərəfə əssin,
Suçu islah edək, məhv eyləməyək.
Hazıram min səhvlik ömrümü kəssin,
Peymanda bir dəfə səhv eyləməyək.

Mən eşqə bağlıyam, sevgiyə bağlı,
Elə sev, sevginin dağı olmasın.
Razıyam ərisin qəlbimin yağı,
Adamdan adama yağı olmasın.

## YOXDUR

Bir gül bağçasına düşdü eşq yolum,
Soruşdum, bildirdi fədası yoxdur.
Söylədim: - de, özüm qurbanın olum,
Dedi: - ol bu işin xətası yoxdur.

Nə qədər güldürdüm dözdü, gülmədi,
Demə, gözəllərdə bu da ilmədi,
Dedim: - gəl qadanı alım, gəlmədi,
Düşündüm, bəlkə heç qadası yoxdur.

Utana-utana keçdi yanımdan,
Elə bil qəlbimi aldı canımdan,
Bildim qayıdacaq, bir vaxt, bir zaman,
Çünki baxışının vidası yoxdur.

Yanımda qalmışdı fikri mələyin,
Üstümə çəkmişdi mehrin bələyin,
O vaxt anladım ki, sevən ürəyin,
Sevgidən qüdrətli qidası yoxdur.

Əxlaqı üzündə, sanki tül idi,
Təpədən-dırnağa o, bir gül idi,
Necə yalançısan Əbülfəz Ülvi,
Deyirdin, bəs gülün adaşı yoxdur.

## SOYQIRIM NƏDİR

Soyqırım nə demək, soyqrım nədir?
Çıxdı dəfələrlə yolumuz üstə.
Bu elə kabusdur yazsan bir sətir,
Sındırar, qol qoymaz qolumuz üstə.

Soyqırım çox olub başım üstə çən,
Çox qıyıb gözümün yaşına mənim.
Dünyaya qurbanlıq gəlməmişəm mən,
Yetən qapaz salsın başıma mənim.

Gücümü yağıya bildirəcəyəm,
Daha qollarımda dağ qüdrəti var.
Daha ölməyəcəm, öldürürəcəyəm,
Nə qədər canımda sağ qüdrəti var.

Baxma ağ atlılar nağıldan gəlir,
Ağ atlı yol verməz axa göz yaşı.
Görəndə kökümüz ağıldan gəlir,
Nadanlıq çıxıbdır ağıla qarşı.

Şər şərdən zövq alar, bitirməz xeyir,
Onlar Tanrıya da ağ olubdular.
Elə bil namərdlər anadan deyil,
Azğın canavardan doğulubdular.

Əsəbim çox dərdə çəkilib tarım,
O, qoymaz şər yolu gedək, dünyada.
Bizi Rəbb xəlq edib soyqırımların,
Özünü soyqrım edək dünyada.

## GÜZƏŞTƏ GETMƏKDƏN BEZMİŞƏM

Güzəştə getməkdən bezmişəm, nəsə,
Daha dağ vurana, dağ qoyacağam.
Düşmən aralığa təpə gətirsə,
Düşmən təpəsinə dağ qoyacağam.

Sanmasın tapacaq çarə bəbəyi,
Qan töküb, zilləyib hara bəbəyi,
Söküb gözlərindən qara bəbəyi,
Onun da yerinə ağ qoyacağam.

Yerdə qalmayacaq Xocalı qanı,
Yenə sökülərək Ağdamın danı,
Neynir Qarabağı, neynir Şuşanı,
Məgər, mən onları sağ qoyacağam?

## DƏYMİR

*Dünyadakı neqativ düşüncələrə etiraz*

Axı nə baş verib görən zamanda,
Sükan hara dönür, sükana dəymir.
Şaxta da, soyuq da, yel də, boran da,
Çiçəyi məhv edir, tikana dəymir.

Günah zərif olan boyun axtarır,
Nəfislər girməyə qoyun axtarır,
İndiki pişiklər qoyun axtarır,
Siçanı az sanır, siçana dəymir.

Yer alır, dərini dayaz sananlar,
Qorunur, qaranı bəyaz sananlar,
Sözünü tutanı, sözbaz sananlar,
Sözündən sürüşüb qaçana dəymir.

Lələk bağlanılır haqlı hər nəyə,
Yol şərə verilir, meydanlar meyə,
Qurdlar quzuları bəslənsin deyə,
Quzular bəslənən məkana dəymir.

Həya eyləmədən, bez gülür şala,
Dilbilməz dilçini döndərir lala,
Özü yeriyəni tez tapır bəla,
Hikkə qanadıyla uçana dəymir.

Nadanlıq meyxana eyləyir piri,
Nə xətir-hörmət var çəkilir geri,
Şər alır məzlumdan bir qarış yeri,
Dünyanı dörd əlli qucana dəymir.

## BƏXŞİŞ TƏK VERİLMİR

Bu acı ayrılıq tək məndən deyil,
Elə bil biz onu tac saxlayırıq.
Həsrət canımızın qaymağın yeyir,
Vüsalı unudub, ac saxlayırıq.

Ürəyə müxalif olma bircə an,
Təngiyər saxlasan tənənin altda.
Məhəbbət ürəkdə yarandığından,
Ürək gizlədilir sinənin altda.

Qov şəri, barışa hərarət gətir,
Ar olar üşüyə-üşüyə getsə.
Ömrün bir yarısı yuxuya gedir,
Nə qalar biri də küsüyə getsə.

Heç kəsə verilmir pay, ianə eşq,
Kim istər məhəbbət ulu olmasın.
Gəlin elə sevək nə ürək, nə eşq,
Tamahın, nəfisin qulu olmasın.

